AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN REKTORU CƏNAB ƏDALƏT MURADOVA

Hörmətli Ədalət müəllim,

Sizi və bütün kollektivinizi, professor-müəllim heyətini və tələbələri respublikamızda ali təhsilin və elmin inkişafında müstəsna rolu olan Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illik yubileyi münasibətilə təbrik edirəm.

1930-cu ildə yaradılan və şərəfli tarixi yol keçən Azərbaycan Dövlət İqtisad Universiteti hər zaman ölkənin ictimai-siyasi həyatında da mühüm rol oynamış, ali təhsilli iqtisadçı kadrlar, böyük alimlər, ictimai xadimlər, yaradıcı ziyalılar yetişdirmişdir.

Son illərdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən təhsil islahatları respublikamızda elm və təhsili kefiyyətcə yeni səviyyəyə yüksəltməkdədir. Təqdirəlayiq haldır ki, bütün bu yeniliklərin önündə olan Azərbaycan Dövlət İqtisad Universiteti dünya təhsil məkanına inteqrasiya yolu seçməklə hazırlıqlı kadr potensialını davamlı təkmilləşdirir, elmi-intellektual mühiti və yaradıcı elmi təfəkkürü ardıcıl şəkildə inkişaf etdirir.

İnanırıq ki, 90 yaşlı Azərbaycan Dövlət İqtisad Universitetinin cəmiyyətdəki yeri və rolu, ictimai əhəmiyyəti bundan sonra da daim yüksələcək, yetişdirdiyi müasir dünyagörüşə malik peşəkar kadrlarla Azərbaycanın hərtərəfli inkişafına dəyərli töhfələr verəcəkdir.

Bir daha Azərbaycan Dövlət İqtisad Universitetinin şanlı yubileyi münasibətilə Sizi və kollektivinizi təbrik edir, fəaliyyətinizdə müvəffəqqiyyətlər arzulayıram.

Hörmətlə,
Maliyyə naziri **Samir Şərifov**

31 may 2020